UOT 338.43

*Şövkət Abuzər qızı YUSUFOVA*
*Azərbaycan Kooperasiya Universitetinin dosenti, i.ü.f.d.*

# AQRAR SAHƏDƏ İNVESTİSİYA MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** – aqrar sahədə investisiya qoyuluşunun mövcud vəziyyətini təhlil etmək və investorların cəlb olunmasını genişləndirmək üçün yeni mexanizmləri müəyyən etməkdir.

**Tədqiqatın metodologiyası** – Azərbaycanda intensiv bağların salınması, faraş kartof istehsalının artırılması, istixanalarda tərəvəz istehsalının artırılması, regionlarda kiçik və ortaölçülü meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması investisiya qoyuluşu baxımından kifayət qədər cəlbedici istiqamətlər kimi qəbul edilir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Azərbaycanın dünya iqtisadi məkanına uğurla inteqrasiyası, əhalinin yüksək həyat səviyyəsinin əldə edilməsi və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün investisiyalaşmanın səmərəli tətbiqi mexanizminin hazırlanması vacib şərtlərdən biri kimi izah edilir.

**Tədqiqatın nəticələri -** Hazırda ölkəmizdə ərzaqlıq buğda üzrə idxaldan asılılıq səviyyəsinin azaldılması, qida sənayesinin yerli xammalla təmin olunması və süd məhsulları istehsalının artırılması, müasir heyvandarlıq komplekslərinin qurulması və bu komplekslərin yüksək məhsuldarlıqlı cins heyvanlarla təminatı istiqamətində müəyyən addımlar atılsa da investisiya qoyuluşunun aşağı olması müşahidə edilir. Bu isə sahənin təbii amillərdən asılı olması, risklərin çox olması və istehsal dövrünün uzun olması ilə bağlıdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Kənd təsərrüfatı sektorunun spesifikliyi, artan risklər və digər amillər aqrar sektorun investorlar tərəfindən idarə olunan ayrı bir investisiya növü olaraq seçilməsinin effektivliyini müəyyən edir. Aqrar sahəyə investisiyalar cəlb etmək üçün bəzi vasitələrdən istifadə edilə bilər, xüsusən də minimum investisiya miqdarını əhəmiyyətli dərəcədə azaldacaq müxtəlif kənd təsərrüfatı fondlarının yaradılması və inkişafı,bu sektoru daha geniş sərmayəçilər üçün əlçatan edir.

***Açar sözlər: kənd təsərrüfatı, aqrar, investisiya, iqtisadi inkişaf, dövlət dəstəyi, tətbiqi mexanizmi.***

## *Giriş*

Bazar iqtisadiyyatının formalaşdığı bir dövrdə inkişaf edən və bərabər olmayan sahələrarası mübadilədə gəlirlərin kəskin fərq nisbətinin azalması və ortaya çıxan mənfi nəticələrin aradan qaldırılması üçün təsirli bir dövlət tənzimləmə mexanizminin olmaması iqtisadiyyatın real sektorunun bir çox sahələrində investisiya fəallığının əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur. İnvestisiya fəallığının azalması emal sənayesinin innovativ inkişafını ləngitməklə bərabər kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sektorunun inkişafının zəifləməsinə, kənd sakinlərinin həyat səviyyəsinin aşağı düşməsinə və sosial gərginliyin artmasına səbəb olur.

Ölkəmizdə qeyri-neft sektorunun, xüsusilə də aqrar sektorun inkişaf etdirilməsi əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Aqrar sahənin inkişaf etdirilməsi həm əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, həm də ölkənin ərzaq təhlükəsizliyi baxımından mühüm iqtisadi-siyasi əhəmiyyət kəsb edir. Bu baxımdan, aqrar sahədə səmərəli investisiya mexanizminin hazırlanmasına və təkmilləşdirilməsinə ehtiyac vardır. Bu, aqrar sektorun sürətli inkişafının əsas istiqamətlərindən biri kimi mühüm rol oynaya bilər. Statistik məlumatlar əsasında aparılan təhlillər göstərir ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının və eləcə də bəzi emal müəssisələrinin aşağı gəlirliliyi, borc potensialını cəlb etmədən rəqabətqabiliyyətli məhsulların istehsalı üçün öz resurs potensialını bərpa etməyə və tələb olunan səviyyədə saxlamağa imkan vermir. Borc vəsaitlərinin vaxtında qaytarıl-

ması və özəl investorların sənayeyə cəlb edilməsi yalnız yüksək gəlirli istehsalla mümkündür. Bu vəziyyətdə əhəmiyyətli dövlət dəstəyi olmadan kənd təsərrüfatı sektorunda təsirli bir investisiya mexanizmini formalaşdırmaq mümkün deyil.

“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə də aqrar sahəyə investisiya qoyuluşlarının aşağı olduğu qeyd edilmişdir. Belə ki, 3-cü hədəf olan maliyyə çıxışının asanlaşdırılmasında qeyd edilmişdir ki, “*Son illər ərzində ölkədə aqrar sahəyə qoyulan investisiyaların ümumi həcminin artmasına baxmayaraq, ümumilikdə bu sahəyə investisiya qoyuluşları iqtisadiyyatın digər sahələri ilə müqayisədə çox aşağıdır. Son on ildə iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların strukturuna nəzər saldıqda, kənd təsərrüfatına yönəldilmiş investisiyaların payının orta hesabla cəmi 3,05 faiz olduğunu görmək olar. İqtisadiyyata qoyulan birbaşa xarici investisiyaların həcminin son illərdə bir neçə dəfə artmasına baxmayaraq, ölkədə aqrar sahəyə birbaşa xarici investisiya, demək olar ki, qoyulmur*” [1. s. 86].

Strateji Yol Xəritəsində qarşıya qoyulan hədəflərdən biri də kənd təsərrüfatına investisiyanın artırılmasıdır və bu məqsədlə müvafiq addımlar da atılmışdır. Lakin, əlavə olunan investisiyalar qarşıda duran problemlərin çox az bir hissəsini həll etməyə imkan versə də, investisiyanın davamlı və gözlənilən səviyyədə olmaması qoyulan investisiyaları da səmərəsiz edir. Son illərdə aqrar sahənin inkişafı istiqamətində qəbul edilmiş dövlət proqramı sənədlərində kənd təsərrüfatının sabitləşdirilməsi və inkişafı milli prioritet hesab olunur və bununla əlaqədar olaraq bu sahəyə dövlətin maliyyə dəstəyinin əhəmiyyətli dərəcədə artması da nəzərdə tutulur. Dövlətin investisiya proseslərində rolunun güclənməsi və resurs potensialının innovativ əsaslarla bərpası ilə iqtisadiyyatın aqrar sektorunda investisiya mexanizminin formalaşması və təkmilləşdirilməsi problemi yenidən aktuallaşır.

**Aqrar sahənin ölkə iqtisadiyyatının inkişafında və ərzaq təhlükəsizliyinin təmin edilməsində rolu**

Azərbaycanın malik olduğu təbii-iqtisadi şərait, torpaq tiplərinin müxtəlifliyi göstərir ki, ölkə kənd təsərrüfatının inkişafı üçün geniş və güclü bir potensiala malikdir. Azərbaycanın Avropa və Asiya bazarlarına, şimala və cənuba çıxışına, müasir logistika mərkəzinə, bütün növ nəqliyyat (hava, dəniz, quru) infrastrukturuna malik olması və əlverişli coğrafi mövqeyinə görə ölkə artıq kənd təsərrüfatı məhsullarının istehsalı və satışında rəqabət üstünlüyünə malikdir. Eyni zamanda, əhalinin artması, həyat səviyyəsinin və gəlirlərinin artması, ölkəyə turizm axınının güclənməsi, istehlak səbətindəki struktur dəyişiklikləri səbəbiylə ərzaq məhsullarına olan tələbatın davamlı artımı kənd təsərrüfatı və eləcə də aqrar emal məhsullarının artırılmasını şərtləndirir.

İnvestisiya mühitinin təşəkkülündə ölkənin və onun ayrı-ayrı regionlarının istehsal və resurs potensialı, əhalinin alıcılıq qabiliyyəti, fəaliyyətdə olan vergi-gömrük mexanizmi, milli valyutanın məzənnəsi, infrastrukturun inkişaf və modernləşməyə ehtiyacı səviyyəsi, inflyasiya və bu kimi bir sıra digər iqtisadi və sosial xarakterli amillər həlledici rola malikdir [3. Səh 61].

Azad bazar iqtisadiyyatı şəraitində dəyişən makroiqtisadi şərtlər kənd təsərrüfatına yönələn investisiya mexanizmi anlayışının aydınlaşdırılmasını, onun əsas sistem formalaşdırıcı elementlərinin müəyyənləşdirilməsini tələb edir. Aqrar sahəyə dövlət maliyyə dəstəyinin ayrılmasına baxmayaraq investisiyaların istifadəsi mexanizmi təsirsiz qalmaqda davam edir. Aqrar sahədə gəlirlərin aşağı olması, təkrar istehsal üçün yenidən maliyyə resurslarının çatışmazlığı kənd təsərrüfatı istehsalçılarının normal fəaliyyət göstərən bir investisiya mexanizmi qurmaq üçün əsas kapitala öz investisiya mənbələrini formalaşdırmasına imkan vermir. Dünya siyasətində baş verən proseslər və onun iqtisadiyyata birbaşa təsiri elmi və praktiki baxımdan əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin daha çətin olduğunu göstərir. Buna görə də, kənd təsərrüfatı istehsalının inkişafını sabitləşdirməyin vacib olduğu emal sənayesi sahələrinə investisiya qoyuluşu mexanizminin formalaşmasının xüsusiyyətləri daha kəskin şəkildə ortaya çıxır. Bu əsasən regionlarda özünü ciddi şəkildə büruzə verir.

“İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun maddə 11-ci maddəsinin 2-ci bəndində qeyd edilir ki, “Dövlət investisiyasının idarə olunması respublika və yerli dövlət hakimiyyət və idarəetmə orqanları tərəfindən həyata keçirilir və büdcə, büdcədənkənar vəsaitin və həmin orqanlar tərəfindən cəlb edilən başqa vəsaitin planlaşdırılmasından, investisiyanın şərtlərinin müəyyənləşdirilməsindən və bunlarla bağlı digər məsələlərin həllindən ibarətdir” [2].

“İnvestisiya fəaliyyəti haqqında” Qanunun 1-ci maddəsində deyilir: “İnvestisiya-gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir” [2].

Aqrar sahə xüsusilə kənd təsərrüfatı investorlar üçün riskli bir sahə olduğundan bu sahəyə investisiya qoyuluşuna maraq azdır. Məhz bu baxımdan kənd təsərrüfatında investisiya və risk dərəcəsi nəzərə alınmaqla, təsərrüfat subyektlərinin borc kapitalına olan tələbatını və gəliri təmin edən vəsaitlərin buraxılmasından ibarət olmalıdır. Kənd təsərrüfatında fəaliyyət göstərən kiçik və orta təsərrüfatların və əhalinin ailə-kəndli ev təsərrüfatlarının məhdud maliyyələşdirilməsi kənd əhalisinin mütləq əksəriyyətini əhatə etdiyindən, bu, obyektiv olaraq kənd təsərrüfatı sektoruna investisiya qoyuluşunun aşağı sosial göstəricilərini müəyyən edir. Azərbaycanda iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiya cədvəl 1-də verilmişdir.

***Cədvəl 1***

***İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiya***

| İllər | Cəmi | O cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | sənaye | kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | tikinti | nəqliyyat və anbar təsərrüfatı | informasiya və rabitə | digər sahələr |
| 2015 | 15957 | 8499.9 | 355.4 | 2123.5 | 2199.9 | 335.3 | 2443.0 |
| 2016 | 16772.8 | 9949.8 | 325.1 | 2831.8 | 1392.3 | 199.4 | 1074.4 |
| 2017 | 17430.3 | 10610.1 | 617.8 | 2746.0 | 1777.7 | 171.9 | 1506.8 |
| 2018 | 17244.9 | 8497.2 | 764.4 | 3721.4 | 1926.6 | 441.5 | 1893.8 |
| 2019 | 18539.5 | 9258.0 | 769.5 | 3550.4 | 2190.7 | 547.1 | 2223.8 |
| 2020 | 17226.1 | 9065.3 | 520.6 | 3178.5 | 2092.6 | 185.5 | 2183.6 |
| | | | | | | | |
| 2015 | 100 | 53.3 | 2.2 | 13.3 | 13.8 | 2.1 | 15.3 |
| 2016 | 100 | 63.1 | 2.1 | 17.9 | 8.8 | 1.3 | 6.8 |
| 2017 | 100 | 60.9 | 3.5 | 15.8 | 10.2 | 1.0 | 8.6 |
| 2018 | 100 | 49.3 | 4.4 | 21.6 | 11.2 | 2.6 | 10.9 |
| 2019 | 100 | 49.9 | 4.2 | 19.2 | 11.8 | 3.0 | 11.9 |
| 2020 | 100 | 52.6 | 3.0 | 18.5 | 12.1 | 1.1 | 12.7 |

*Mənbə: Dövlət Statistika Komitəsi, stat.gov.az*

Statistik məlimatlardan göründüyü kimi, kənd təsərrüfatı və ona bağlı olan emal müəssisələri qeyri-neft sektorunda yüksək potensiala malik olmasına baxmayaraq bu sahədə əsas kapitala yönəldilmiş investisiya informasiya və rabitədən sonra ən az paya malikdir. Digər tərəfdən, bu istiqamətə yönəldilən investisiya əsasən kənd təsərrüfatı texnikalarının alınmasına, soyuducu anbar və taxıl elevatorları infrastrukturlarının,aqroparkların qurulmasına yönəldilmişdir. İnvestisiyalar hesabına yaradılan yeni infrastrukturdan səmərəsiz istifadə isə investisiyaların səmərəsizliyinə səbəb olur. Ayrıca olaraq bu infrstukturlar istehsalın inkişafında hər hansı müsbət dəyişikliyə səbəb olsa da ayrı-ayrılıqda sahibkarlıq fəaliyyətinin inkişafında elə də ciddi dəyişikliyə səbəb olmurlar.

İqtisad elmləri doktoru professor İ.İbrahimov qeyd edir ki, “Aqrar sahədə formalaşan sahibkarlar milli iqtisadiyyatın inkişafında mühüm rol oynayırlar. Sahibkarlığın inkişafı, kənd təsərrüfatındakı mövcud potensialdan daha səmərəli istifadə edilməsində, orta və irihəcmli layihələrin həyata keçirilməsində tərəfdaşlarla faydalı iqtisadi əlaqələr yaratmaqda investisiyaların rolu artır.

İstehsal və xidməti modernləşdirmək, kapital əldə etmək və onun dövriyyəsini artırmaqla strateji vəzifələrin həyata keçirilməsini təmin etmək olar. Bu baxımdan investisiya aqrar iqtisadiyyatın davamlı inkişafının əsas vasitələrindən biri olmaqla real kapitalın artırılmasında, iqtisadi səmərəliliyin stimullaşdırılmasında və rəqabətqabiliyyətli istehsal və xidmətlərin formalaşmasında mühüm rol oynayır [4. s. 588-589]

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, kənd təsərrüfatının inkişafını təmin etmək məqsədilə yerli və xarici investorları cəlb etmək üçün, demək olar ki, sərbəst iqtisadi mühit yaradılmışdır. Lakin bununla birlikdə, kənd təsərrüfatının inkişafı üçün lazım olan investisiyaları cəlb etmək və onların müsbət təsirini maksimum dərəcədə artırmaq üçün iqtisadiyyatın aqrar sektorunun investisiya siyasəti sahəsində bir sıra məsələləri həll etmək və onlar üçün əsas təklifləri müəyyən etmək lazımdır.

Belə ki, kənd təsərrüfatına investisiya qoyuluşunda investisiya sahəsindəki maraqların yaxınlaşması qarşılıqlı əsasda baş verməlidir. Kənd təsərrüfatında gəlirlilik səviyyəsinin aşağı olması və getdikcə risklərin artması dövlət səviyyəsində borc vəsaitlərinin geri qaytarılmasını təmin edən şərtlərin meydana gəlməsi səbəbindən qoyulan investisiyaların müəyyən hissəsinin dövlət tərəfindən sığortalanması məqsədəuyğundur. Bu vəziyyətdə investisiyalardan istifadə, investisiya fondlarının iqtisadi və maliyyə fəaliyyətinə yönəldilməsinin səmərəli təşkili deməkdir. Bir sözlə, investorun investisiya gəlirliliyi təmin olunur. İnvestora investisiyanın geri qayıtmasının təmin edilməsi onun borclanmış investisiya xüsusiyyətini qorumağa və yeni investisiyaları təmin etmək üçün investorun resurs portfelini bərpa etməyə imkan verir.

İnvestisiya layihələrinin qiymətləndirilməsi üçün müsbət xalis cari dəyər, layihənin gəlirlilik indeks (birdən çoxdur), layihənin daxili gəlirlilik dərəcəsinin (büdcə səmərəliliyi) layihənin həyata keçirilməsi üçün cəlb edilmiş kredit (büdcə) vəsaitlərinin dəyərilə müqayisəli fərqi (yüksəkdir və ya aşağıdır) kimi göstəricilərə diqqət yetirmək lazımdır.

**Aqrar sahəyə investisiya qoyuluşunda xarici təcrübə**

Aqrar sahənin xüsusi mülkiyyət əsasında inkişaf etdirilməsinin ilk vaxtlarından kənd təsərrüfatına investisiyaların cəlb edilməsi hər bir ölkədə olduğu kimi bizim ölkədə də diqqət mərkəzindədir.

Avropa ölkələrində kənd təsərrüfatına investisiya qoyuluşu son illərdə genişlənməklə bərabər, getdikcə "torpaq ələ keçirmə" kimi özünü göstərməkdədir. Bununla birlikdə, kənd təsərrüfatına qoyulan digər investisiya növləri daha çox yayılmışdır, məsələn, müştərək müəssisələr, kooperativlər, idarə müqavilələri, müqavilələli əkinçilik və məhsul yetişdirmə sxemləri. İnkişaf etmiş ölkələrdə əsas investor rolunda xidmət kooperativləri çıxış edirlər.Xidmət kooperativlərinin digər bir vacib kateqoriyası, öz üzvlərinə sərmayələrini və ya dövriyyə kapitalını birgə maliyyələşdirməsinə imkan verən kredit kooperatividir. Kredit ittifaqları vasitəsi ilə fermerlər üzvlərinə borc vermək üçün vəsait toplayırlar və eyni zamanda kreditlər kommersiya banklarının təklif etdiklərindən daha yaxşı faizlə cəlb edilə bilər. Bu kiçik birliklərdən bəziləri Fransadakı Crédit Agricole və Crédit Mutuel, Almaniyadakı DZ Bank və ya Hollandiyadakı Rabobank kimi böyük beynəlxalq banklara çevrildi. Bu Avropa kooperativ bankları yerli kənd əhalisinin ehtiyaclarından doğmuş və indi beynəlxalq xidmətlər göstərmək üçün genişlənmişdir [5].

Qərb ölkələrində istifadə olunan kənd təsərrüfatı qiymətlərinə dövlət dəstəyi üsulları təxminən eynidir və dövlətin büdcə vəsaitləri hesabına zəmanət verdiyi göstərici (bazarda qiymətlərin dəyişməsi yuxarı və aşağı hədləri nəzərə alınmaqla) qiymətlərinin səviyyəsini təyin etmək üçün aşağı düşür. Ümumi Bazar çərçivəsində bu siyasətin bir xüsusiyyəti, kənd təsərrüfatı məhsullarının öz istehsalçıları üçün (daxili və dünya qiymətləri arasındakı fərqi əhatə edən gömrük rüsumları, fermerlərə və ixracatçılara kompensasiya ödənişləri) bir müdafiə sistemidir.Bu təkcə ayrı -ayrı ölkələrin aqrar potensialının orijinallığını və ixtisaslaşmasını qorumaqla yanaşı, həm də Qərbi Avropanı ABŞ-la belə uğurlu rəqabət aparan ən böyük ərzaq ixracatçısına çevirmək imkanı verdi. ABŞ-da və AB ölkələrində fermer məhsullarının qiymətləri dünya qiymətlərindən daha yüksək səviyyədə müəyyən edilmişdir.

Aşağıdakı cədvəldə inkişaf etmiş və inkişaf etməkdə olan bir sıra ölkələrdə kənd təsərrüfatı, meşə və balıqçılıq sahəsinə yönəlmiş birbaşa investisiyaların həcmi, həmçinin bu həcmin ümumi investisiya portfelindəki payının 2018-ci il üzrə statistik məlumatları əks olunmuşdur:

***Cədvəl 2***

***Kənd təsərrüfatı, meşə və balıqçılıq sahəsinə yönəldilmiş investisiya həcmi və xüsusi çəkisinə dair məlumatlar (2018)***

| S/s | | Kənd təsərrüfatı, meşə və balıqçılıq sahəsinə yönəldilmiş investisiya həcmi, milyon ABŞ dolları | Sahəvi investisiyanın ümumi investisiya portfelindəki payı, % |
|---|---|---|---|
| 1 | ABŞ | 804.0 | 0.3 |
| 2 | Fransa | 89.7 | 0.2 |
| 3 | İtaliya | 67.9 | 0.2 |
| 4 | Yunanıstan | 17.2 | 0.4 |
| 5 | Türkiyə | 96.2 | 0.7 |
| 6 | İsrail | 14.0 | 0.1 |
| 7 | Rusiya | 57.8 | 0.4 |
| 8 | Qazaxıstan | 90.3 | 2.4 |
| 9 | Özbəkistan | 27.9 | 4.5 |
| 10 | Yaponiya | 50.5 | 0.5 |

*Mənbə: FAO təşkilatının statistik məlumatlar bazası (http://www.fao.org/faostat/en/#data/FDI)*

Cədvəl məlumatlarından da göründüyü kimi, ABŞ-da, Qazaxıstanda, Türkiyə və Fransada sahəvi investisiyaların həcmi daha çox olsa da, xüsusi çəkisinə görə Qazaxıstan və Özbəkistan digər ölkələrə nisbətən daha çox fərqlənməkdədir. Ümumilikdə götürüldükdə isə, inkişaf etmiş ölkələrdə aqrar sektora yatırılan investisiyaların payının digər ölkələrə nisbətdə daha az olduğu bir tendensiya müşahidə edilir. Bu da hər bir ölkənin aqrar siyasətindən və iqtisadiyyatın prioritetliyi və iqtisadi inkişafı səviyyəsindən bilavasitə asılı olduğunu göstərir.

Dünya ölkələrində ümumilikdə kənd təsərrüfatı sektorunda çoxlu sayda investorlar fəaliyyət göstərir və bu sahədəki investisiya siyasəti təkcə kənd təsərrüfatına özəl investisiyaların artırılmasına deyil, həm də investisiyaların davamlılığının təmin edilməsinə yönəldilməlidir. Kənd təsərrüfatında özəl investisiyaların əsas obyektləri kimi kiçik torpaq sahələri olan yerli fermerlər çıxış edir. Bəzi ölkələrdə böyük beynəlxalq investorlar da kənd təsərrüfatında kapital ehtiyatlarının toplanmasına yardımçı olurlar. İnvestorlar yerinə yetirdikləri investisiya layihələri çərçivəsində yeni iş yerləri yarada və kənd təsərrüfatı istehsalının və dəyər zəncirinin rəqabət qabiliyyətini artırmaq üçün təcrübə, maliyyə imkanları və marketinq şəbəkələri gətirə bilirlər. Bununla yanaşı, irimiqyaslı investisiyalar da mənfi sosial və ekoloji nəticələrə səbəb ola bilər. Məhz bu səbəbdən də, bir çox inkişaf etmiş ölkələrdə investisiya siyasəti hazırlanarkən investisiyalara ev sahibliyi edən ölkəyə həm iqtisadi, həm də sosial fayda gətirməsi üçün qanunların və normativ aktların fayda verəcək bir sənəd kimi işlənib hazırlanmasına ciddi önəm verilir.Aydın və əlçatan səviyyədə hazırlanmış qanunlar, qaydalar və siyasət kənd təsərrüfatı investorları üçün təhlükəsiz və etibarlı şəraitin yaradılmasına kömək edir. Bu, təsərrüfat və müəssisələrin investisiya imkanlarını daha məlumatlı və vaxtında qiymətləndirməsinə, bununla da investisiyaları stimullaşdırmaqla əməliyyat xərclərini azaltmağa kömək edir. Hökumətlərin normativ aktları necə tətbiq etməsi və dəyişdirməsi barədə şəffaf məlumat, eləcə də proqnozlaşdırılan normativ aktlar investorların etibarını artırır. Onlar, xüsusilə formal iqtisadiyyata girməkdə xüsusi çətinliklərlə üzləşən kiçik aqrar investorların, eləcə də müxtəlif tənzimləyici və inzibati sistemlərlə işləməli olan iri xarici investorların investisiyalarını dəstəkləyirlər.

Dünya Bankının "Doing Business" hesabatları göstərir ki, tənzimlənmənin sərtləşdirilməsi və həddindən artıq süründürməçiliyin, bürokratik əngəllər və prosedurların mürəkkəbliyi investorlar üçün xərcləri və gecikmələri artırır, bu da dövlət rəsmiləri arasında qeyri-leqal halların (korrupsiya və s.) daha yüksək səviyyəsinə gətirib çıxarır. Bu səbəbdən də investisiya mühiti ilə bağlı qanunvericilik aktlarının səmərəliliyi ilə bağlı öncədən geniş təhlil aparılmalıdır.

Tənzimləyici təsirin təhlili (TTT) normativ aktların ehtimal olunan səmərələrinin və xərclərinin, o cümlədən onların sosial və ekoloji nəticələrinin öyrənilməsi inzibati yükü dəqiq müəyyən etməyə və normativ qərarların qəbul edilməsi barədə məlumatlandırmağa kömək edə bilər. Belə təhlil dövlət müəssisələrinin milli və submilli səviyyələrdə güclü institusional potensialına əsaslanmalıdır [6].

### *Nəticə*

Kənd təsərrüfatı məhsullarının emalı sahəsində baş verən geriləmələr kənd təsərrüfatının inkişafına mənfi təsir etməklə aqrobiznesin inkişafını ləngidir. Digər tərəfdən kənd təsərrüfatında ən səmərəli sahələr, yüksək gəlirli kənd təsərrüfatı məhsullarının istehsalının və emalının təşkil edildiyi sahələr, kənd təsərrüfatı məhsullarının satışına dəstək verilən obyektlərə sərmayə qoyuluşu artsa da ixrac coğrafiyasının məhdudluğu investor üçün riskləri artırır.

Aqrar sahənin hərtərəfli inkişafı üçün qabaqcıl texnologiyaların tətbiqini, xammal bazasının inkişafını, bölgələrin nəqliyyat infrastrukturunun inkişafını təmin etmək üçün investisiyaların cəlb edilməsi ən mühüm məsələlərdən biri olmalıdır.

Dövlətin kənd təsərrüfatının və aqrar-sənaye istehsalının investisiya cəlbediciliyinin artırılmasında fəal iştirakı müasir iqtisadi şəraitdə aqrar-sənaye istehsalının müasirləşdirilməsinin sürətləndirilməsinin vacib istiqamətidir. Aqrar-sənaye istehsalına tətbiq edilən "investisiya cəlbediciliyi" iqtisadi kateqoriyası investorların risklərini azaldan və onu regionlara, sahələrə, təsərrüfat subyektlərinə mənfəət və ya hər hansı sosial effekt əldə etmək məqsədilə maddi-texniki və maliyyə resursları qoymağa həvəsləndirən biznesin (təşkilati, normativ, maliyyə, iqtisadi, sosial və s.) aparılması üçün zəruri şəraitin yaradılmasıdır.

### ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir-Bakı-2016-179 s.
2. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu
3. A.E. Quliyeva. Regional sosial-iqtisadi inkişaf proqramları: maliyyə-kredit təminatı və səmərəlilik. Monoqrafiya. “Kooperasiya” nəşriyyatı, Bakı -2017-288 s.
4. İ.H.İbrahimov. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. Bakı:-2016-655 s.
5. Inclusive Investment in Agriculture: Cooperatives and the role of foreign investment, www.iisd.org/system/files/publications/inclusive-investment-in-agriculture-en.pdf https://www.oecd.org/daf/inv/investment-policy/PFIA_April2013.pdf
6. FAO təşkilatının statistik məlumatlar bazası (http://www.fao.org/faostat/en/#data/FDI
7. http://www.fao.org/3/au866e/au866e.pdf
8. https://www.ersj.eu/dmdocuments/29.SEMIN_ET_AL_XXI_2_18.pdf
9. https://responsibleagroinvestment.org/activities/recommendations-to-enhance-positive-impacts-of-agricultural-investment/

*Шовкет Абузар кызы Юсуфова*
*Доцент Азербайджанского Университета Кооперации*

**Направления улучшения инвестиционного механизма в аграрной сфере**

*Резюме*

**Цель исследования** - проанализировать текущее состояние инвестиций в сельское хозяйство и выявить новые механизмы расширения участия инвесторов.

**Методология исследования** - создание интенсивных фруктовых садов в Азербайджане, увеличение производства картофеля, увеличение производства овощей в теплицах, создание малых и средних предприятий по переработке фруктов и овощей в регионах считаются достаточно привлекательными сферами для инвестиции.

**Значение исследования -** объясняется одним из важных условий успешной интеграции Азербайджана в мировое экономическое пространство, разработка эффективного механизма инвестирования для достижения высокого уровня жизни и продовольственной безопасности страны.

**Результаты исследования** - В настоящее время, несмотря на некоторые шаги, предпринятые для снижения зависимости от импорта продовольственной пшеницы, обеспечения пищевой промышленности местным сырьем и увеличения производства молочных продуктов, строительства современных животноводческих комплексов и обеспечения этих комплексов высокопродуктивными породами, инвестиции необходимы. низкий. Это связано с тем, что отрасль зависит от природных факторов, существует множество рисков и производственный цикл длительный.

**Оригинальность и научная нововведение исследования** - Специфика аграрного сектора, возрастающие риски и другие факторы определяют эффективность выбора аграрного сектора как отдельного типа инвестиций, управляемого инвесторами. Некоторые инструменты могут быть использованы для привлечения инвестиций в аграрный сектор, в частности, создание и развитие различных сельскохозяйственных фондов, что значительно сократит минимальные инвестиции, сделав этот сектор более доступным для инвесторов.

***Ключевые слова: сельское хозяйство, аграрный сектор, инвестиции, экономическое развитие, государственная поддержка, заявочный механизм.***

***Shovkat Abuzar Yusufova***
***Associate of Azerbaijan Cooperation University***

**Directions for improving the investment mechanism in the agricultural sector**

***Summary***

**The purpose of the study**- is to analyze the current state of investment in agriculture and identify new mechanisms to expand the involvement of investors.

**The methodology of the research -** the establishment of intensive orchards in Azerbaijan, increasing the production of potatoes, increasing the production of vegetables in greenhouses, the establishment of small and medium-sized fruit and vegetable processing enterprises in the regions are considered quite attractive areas for investment.

**Significance of the application of the study -** One of the important conditions for the successful integration of Azerbaijan into the world economic space, the development of an effective mechanism for investment to achieve a high standard of living and food security of the country is explained.

**Results of the study -** At present, despite some steps taken to reduce the dependence on food wheat imports, provide the food industry with local raw materials and increase dairy production,

build modern livestock complexes and provide these complexes with high-yielding breeds, investment is low. This is due to the fact that the industry depends on natural factors, there are many risks and the production cycle is long.

**Originality and scientific novelty of the research** - The specificity of the agricultural sector, increasing risks and other factors determine the effectiveness of choosing the agricultural sector as a separate type of investment managed by investors. Some tools can be used to attract investment in the agricultural sector, in particular the creation and development of various agricultural funds, which will significantly reduce the minimum investment, making this sector accessible to a wider range of investors.

***Key words: agriculture, agrarian, investment, economic development, state support, application mechanism.***